**UOT02.41**

***Turac Məmmədova***
***Bakı Mühəndislik Universitetinin müəllimi***
***AZ0102, Abşeron, Həsən Əliyev 120***
www.qu.edu.az

# MÜNAQİŞƏLƏRİN QARŞISININ ALINMASINDA MULTİKULTURALİZMİN İNKIŞAFININ ƏHƏMİYYƏTİ

**Xülasə:** Bəşəriyyətin gələcəyini təmin edən sülh və sabitliyin qorunması konfliktologiya elminin başlıca istiqamətlərini təşkil edir.İstər İkinci dünya, istərsə də SSRİ-nin dağılmasından sonrakı dövrlərdə baş qaldırmış dağıdıcı münaqişələr, etnik qarşıdurmalar geniş elmi-analitik təhlil tələb edir. Doğrudur, bu proseslərin beynəlxalq hüquqi norma və prinsiplərin əsasında tənzimlənməsi öz aktuallığını hər zaman ciddi formada ifadə edir, lakin, eyni zamanda, alternativ baxış və tədbirlərin axtarışı da dövrün mühüm tələbi kimi özünü göstərməkdədir. Bu baxımdan, multikulturalizmin inkişafı və bu istiqamətdə həyata keçirilən tədbirlər, hər bir dövlətdə mültikulturalizmin bir model olaraq formalaşması və xarici siyasət amilinə çevrilməsini vacib şərtlərdən hesab etmək olar. Demokratik və hüquqi prinsiplər əsasında formalaşan dövlətimiz, müstəqilliyin ilk illərindən öz multikultural modelini yaratmış və dövlət siyasətinin bir xəttinə çevirmişdir. Bu modelin daha da təkmillədirilməsi, eyni zamanda, etnik və mədəni cəhətdən zəngin olan xalqımızın yüksək rifahının və təhlükəsizliyinin təminatı deməkdir.

**Açar sözlər :** Azərbaycan, münaqişə, multikulturalizm, demokratiya

Xalqların və bütün bəşəriyyətin mədəni hüquqlarının müdafiəsi,beynəlxalq münasibətlərin hüquqi və etik nizamlanması, mədəniyyətlərin sistemli dialoqunun təşkili xalqlar və dövlətlər arasında tolerantlığın, qarşılıqlı anlaşmanın əldə edilməsi və dünyada baş verən dağıdıcı proseslərin qarşısının alınmasında

mühüm əhəmiyyətə malikdir. Bu baxımdan, mədəni müxtəlifliyin, özünəməxsusluğun qorunması və inkişaf etdirilməsi müasir dövrün tələbinə çevrilmişdir.

Bilirik ki, "soyuq müharibə" bitdikdən, Sovet İttifaqı və bipolyar beynəlxalq sistem dağıldıqdan sonra lokal və regional konfliklərin sayı nəzərə çarpacaq səviyyədə artdı. Bu dönəmdə dünyada siyasi zorakılıq, beynəlxalq cinayətkarlıq və aqressiv milliyətçiliklə müşayət olunan yeni tip konfliktlər üzə çıxdı və genişlənməyə başladı. BMT- nin rəsmi açıqlamasına görə, İkinci dünya müharibəsi bitdikdən sonrakı dövr ərzində (1945-1970) silahlı münaqişələrin sayı 97 –yə çarmışdır. Eyni zamanda, "beynəlxalq qütbləşmə və müasir silahların asanlıqla əldə olunması" (1) daha kəsgin, dağıntılı nəticələrə səbəb olmuşdur.

Stokholm Beynəlxalq Sülh Problemləri Tədqiqatı İnstitutunun məlumatına görə, 1989-cu ildə 32 bölgədə 36 böyük konflikt baş qaldırmışdır. Bu cəhətdən çoxlu sayda insan tələfatına və dağıntılara səbəb olan silahlı münaqişələr xüsusi ilə təhlükəli idi. Bu baxımdan, qlobal təhlükə olaraq insanlığı ciddi sınaq qarşısında qoyan müasir regional konfliktlərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Milli ideya və çağırışları öz məqsədləri naminə istifadə etməyə çalışan müxtəlif siyasi qüvvələrin qızışdırdığı etnik və etnosiyasi münaqişələr bu sırada daha ağır formada özünü göstərir. Əsasən, bir-birinə bağlı, çox saylı ziddiyyətlər düyünündən ibarət olan bu tip münaqişələrin həlli olduqca çətin və məsuliyyətlidir.

Etnologiya elminin uzunmüddətli tarixə malik olmasına baxmayaraq, hələ də "etnos" anlayışının dəqiq mahiyyətini açıqlayan ümumi qəbul olunmuş variant demək olar ki, yoxdur. Bəzi etnoloji məktəblər etnosların yaranmasını obyektiv şərtləndirərək - təbii şərait, ərazi, dil mənsubiyyətini önə çəkir, bəziləri isə - din, həmrəylik hissinə əsaslanaraq subyektiv baxış ifadə edirlər.

Bu baxımdan, tanınmış rus mütəxəssisi V.A.Tişkov öz fikrini belə ifadə edir: "Etniklik - davranış normalarının davamlı cəmi, yaxud etnosdaxili informasiya strukturlarınının müəyyən dairələri tərəfindən dəstəklənən sosial- standart mədəniyyətdə ( dil, qohumluq və s. əlaqələr) daha aydın şəkildə özünü təsdiq edir." (2) Müəllifə görə, etnik kimlik, ilk növbədə, dil, psixologiya, mənəviyyat, estetika, din və bir çox mədəni vasitələrlə şərtlənən qrupdaxili davranış normalarına əsasən verilir.

Xalqlararası münasibətlərdən danışarkən "etnos" anlayışı ilə yanaşı "millət" anlayışından da istifadə olunur. Dünya praktikasında bu anlayış, bir dövlətdə yaşayan vətəndaşların birliyi mənasında ifadə olunur, məsələn, -Birləşmiş Millətlər Təşkilatı. Nə iqtisadi, nə mədəni deyil, bir və ya bir neçəböyük etnosun bazasında formalaşan, yalnız milli mənsubiyyətə uyğun adlandırılan Yeni dövrə məxsus müstəqil dövlətlər. Beləliklə, "etnos" və "millət" anlayışlarına aydınlıq gətirərkən, demək olar ki, millət- öz dövlətini təşkil etmiş etnosdur. Bu zaman, diqqətdə saxlamaq lazımdır ki, dövlətlər arasında olan sərhədlər heç vaxt müəyyən etnosun məskunlaşdığı lokal yaşayış sərhədləri ilə üst-üstə düşmür.

Bir çox etnoslar, məsələn, erməni, polyak, ümumiyyətlə, daha tez-tez dövlətlərin bölünmüş sərhədləri daxilində olmuşlar. Lakin böyük dövlət dedikdə, bir yox, daha çox etnosun vahid dövlət tərkibində olması daha real görünür.

Məsələn, amerikalılar (ABŞ- vətəndaşları) –bir milləti təşkil edir, baxmayaraq ki, bu vətəndaşlar müxtəlif etnosları təmsil edir.

Tanınmış amerikalı politoloq Samuel Xantinktonun "Sivilizasiyların toqquşması və dünya nizamının dəyişdirilməsi" traktatında irəli sürdüyü iddiaya əsasən, etnik münaqişələrin qarşısının alınması və tənzimlənməsi siyasi idarəetmənin rolu və əhəmiyyəti ilə müəyyən olunur. Onun fikrinə görə, "müasir dünyada regional siyasət etnik münasibətlər səviyyəsində, qlobal siyasət isə, sivilizasiyalararası münasibətlər səviyyəsində reallaşır" (3). Bu halda, çox geniş və ciddi münaqişələr siniflər, yaxud varlı- yoxsul təbəqələr arasında deyil, müxtəlif mədəniyyətlərə malik xalqlar arasında ehtimal olunur. Bu fikri, siyasi münaqişələrin hazırki dinamkasında da müşahidə etmək mümkündür. Belə ki, Yuqoslaviyada baş vermiş müharibənin gedişində Rusiyanın serblərə, Səudiyyə Ərəbistanı, Türkiyə, Livan və digər ölkələrin isə bosniyalılara diplomatik dəstək verməsini xatırlatmaq yerinə düşərdi. Əlbəttə, bu cür siyasətin kökündə iqtisadi, ideoloji düşüncə və maraqlar deyil, məhz mədəni qohumluq faktoru aydın görünməkdədir. Həmçinin, iki Almaniya dövlətinin maneəsiz birləşməsində də eyni faktorların dayandığı göz önündədir. Əksinə, çox güclü ideoloji və siyasi təzyiqin olmasına baxmayaraq, müxtəlif mədəniyyətlərə malik xalqları birləşdirən SSRİ, Yuqoslaviya kimi dövlətlərin dağılması da məhz bu faktorun real olduğunu təsdiqləyir. S.Xantinqton mədəni-sivilizasiya müxtəlifliyini gələcək siyasi münaqişələrin mənbəyi kimi diqqətdə saxlamağı təklif edir. Elə bu baxımdan, öz fikrini yekunlaşdıraraq bildirir ki, "... «soyuq müharibə» bitdikdən sonrakı dövrdə, dünya siyasətinin başlıca xətti Qərbin qüdrət və mədəniyyətinin digər fərqli sivilizasiyalarla toxunduğu yerdən keçir." (4)

2001-ci il 11 sentyabrda ABŞ –da baş verən terror aktı, ardınca isə "cavab zərbəsi" Qərb və islam qrupları arasında silahlı mübarizəyə gətirib çıxardı. Doğrudur, bu məsələ qlobal xarakter daşıyır, lakin, nəticə etibarı ilə onun kökündə də iki tamamilə fərqli dəyərlər sisteminə malik sivilizasiyaların toqquşması özünü göstərir. Bir tərəfdə, demokratik dəyərlər, azad bazar iqtisadiyyatı, insan hüquq və azadlıqları, qanunun aliliyi, digər tərəfdə isə adət-ənənələr, ailə-nəsil sosial quruluşu, mütləq hakimiyyət, dünyaya yalnız öz prizmasından baxmaq kimi ənənələr münasibətlərdə tarazlığın pozulmasına gətirib çıxarır.

Belə hesab etmək düzgün olardı ki, istər regional səviyyədə, istərsə də qlobal səviyyədə etnik münasibətərin demokratik yolla tənzimlənməsi, beynəlxalq hüquq və prinsiplər əsasında idarə olunması münaqişə risqinin aradan qaldırılmasına və sivilizasdiyalar arasında gərginliyin azalmasına müsbət təsir göstərə bilər. Məsələn, mültikultural cəmiyyətin mövcud olduğu demokratik dövlətlərdə etnik gərginlik faktı çox aşağıdı. Bu dövlətlər, əsasən Qərb sivilizasiyası və onun dəyərlərinə malik ölkələrdir. Multikultural çəmiyyətin inkişafı, nəinki siyasi, ideoloji, həmçinin ölkənin iqtisadi gücünün mənbəyinə də çevrilə bilər. Məsələn, Almaniya, Avstraliya kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin iqtisadi gücünün immiqrasiya ilə formalaşması heç kimə sirr deyil.

Çin Xalq Respublikasının timsalında isə, son dövrlərdə etnik gərginlik faktı özünü açıq göstərməkdədir. Həmin dövlətdə yaşayan 11 türk əsilli etnik qrup, xüsusən uyğurların zorakılığa məquz qalmaları diqqət mərkəzindədir. Uyğurlar

Çində ən çoxsaylı etnik qrup olmaqla, həm də Türk mədəniyyətinin daşıyıcılarıdır. Çin dövlətinin onlara qarşı yürütdüyü assimilyasiya siyasəti, yalnız qarşıdurma və vətəndaş həmrəyliyinin pozulmasını özündə ehtiva edir.

Aydındır ki, hər bir etnos öz mədəniyyətini, mövcudluğunu, mənəvi birliyini qorumağa çalışır və müasir etnik konfliktəlrin kökünü də burada axtarmaq düzgün olardı. Bu zaman, "hər etnos- bir dövlət!"- çağırışı müasir dünya düzəni üçün utopiya olaraq səslənir, desək, yanılmarıq. Bilirik ki, hal- hazırda, dünyada 200-ə qədər müstəqil dövlət, təxmini hesablamalara əsasən isə 5000 etnos mövcuddur. Bu baxımdan, yuxarıda səslənən çağırışa "belə yanaşma" real görünə bilməz. Tarixi inkişaf sübut edir ki, ölkənin mədəni səviyyəsi nə qədər yüksəkdirsə, etnik konfliktlərin səviyyəsi də bir o qədər riskli deyil, əlbəttə, siyasi qərəzlilik istisna olmaqla. Bir sözlə, etnik münaqişələrin qarşısının alınması, dövlətin bu istiqamətdə öz siyasətini düzgün qurmasından asılıdır. Məsələn, keçmiş SSRİ-yə daxil olan dövlətlərdə baş qaldıran etnik konfliktlər, siyasi səhvlərin nəticəsiolaraq üzə çıxdı.

Beynəlxalq təşkilatlarda mübahisə doğuran məsələlərdən biri dəmillətllərin öz müqəddəratını təyin etməsinin, yoxsa dövlətlərin suverenliyinin, ərazi toxunulmazlığının daha vacib olmasıdır. Məlumdur ki, ölkəmiz müstəqilliyimizin ilk illərindən münaqiqəşəyə cəlb olunmuş və ağır itkilər vermişdir. Təəssüf ki, heç bir hüquqi, tarixi və mənəvi haqqı olmadan torpaqlarımıza təcavüz edən Ermənistan dövləti hələ də əsassız iddialarlından əl çəkmək istəmir. Lakin, qeyd etdiyimiz kimi, erməni xalqı öz müqəddəratını təyin edib və dövlətini qurub.

Sitat: Tarixdən məlumdur ki, 1945-ci ildə Ermənistan KP MK-nin birinci katibi Q. Haryutunov Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqda məsələ qaldırır. Ermənistanın bu təklifinə cavab olaraq, Azərbaycanın o zamanki rəhbəri M.C. Bağırov Moskvada rəhbərliyə bildirir ki, bu təklifi müzakirə etmək olar, lakin bu şərtlə ki, Ermənistanın, Gürcüstanın və Dağıstanın, əsasən azərbaycanlılar yaşayan və tarixən Azərbaycanın olmuş əraziləri onun özünə qaytarılsın (5).

Dağlıq Qarabağ haqqında ikinci dəfə belə təklifi Ermənistan rəhbərliyi, o zaman, A. Mikoyanın vasitəsilə N. Xruşşovun rəhbərliyi dövründə gündəmə gətirməyə çalışmışdır. N. Xruşşov isə, bu barədə öz fikrini belə şərh edib: " Mən Ermənistana getmək istəyən qarabağlı ermənilər üçün kifayət qədər yük maşını verilməsi haqqda sərəncam verə bilərəm. Bununla da məsələ dondurulmuşdur.

Məlumdur ki, Azərbaycanda müxtəlif mədəniyyətlərə, dinlərə açıq olan mühitin formalaşması və bu mədəniyyətlərin bir-birinə uğurlu inteqrasiyası uzun bir dövrü əhatə edir. Fərqli mədəniyyətlərə malik etnosların əsrlər boyu sülh şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin qorunub saxlanılmasında, əlbəttə, xalqımıza xas olan humanizm və multikultural dəyərlər böyük rol oynayır.

Multikulturalizm siyasətini ölkənin demokratik inkişafının əsası hesab edən ümummilli lider Heydər Əliyev Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışı zamanı bildirmişdi: "Azərbaycançılıq öz milli mənsibiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir

insanın inkişafının təmin olunması deməkdir.” (6) Doğurdan da, Ulu Öndərin qeyd etdiyi kimi: "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".

Qeyd edək ki, həm qədimlərdə, həm də müasir dövrdə Azərbaycan öz yüksək tolerantlığı ilə seçilən bir bölgə kimi tarixdə qeyd olunub. Belə ki, müxtəlif etnosların sülh içində yaşadığı ərazi olaraq tanınıb. Azərbaycan etnosunun tarixinə nəzər salsaq, görərik ki, ölkə əhalisinin əsas hissəsini azərbaycanlılar təşkil etsə də, azsaylı xalqlar, etnik və milli qruplar müxtəlifliyi ilə seçilir. Bu sırada 180 300 ləzgi, 120 306 erməni, 119 307 rus, 111 996 talış, 49838 avar, 37 975 türk, 25 911 tatar, 25 218 tat, 21 509 ukraynalı, 12 289 saxur, 9 912 gürcü, 9 084 yəhudi, 6065 kürd, 4 400 qrız , 3 821 udin, 2 233 xınalıq və 9 500 digər xalqların nümayəndələri yer alır (7).

Dövlətin milli siyasəti müxtəlif millət, etnik qrup və dini azlıqların birgə yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilib. BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun açılışındakə çıxışında da möhtərəm prezidentimiz cənab İlham Əliyev bunu qeyd edərək demişdir: “Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu, bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik” (8). Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə görə, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Beləliklə, istər beynəlxalq, istərsə də regional səviyyədə etnik münaqişələrin qarşısının alınması və dünyada sülhün təmin olunmasında multikulturalizmin rolu getdikcə artmaqdadır. BMT Nizamnaməsinə uyğun olaraq, müasir beynəlxalq münasibətlər və beynəlxalq idarəetmə mədəniyyətini müəyyən edən başlıca prisiplər, o cümlədən, “Münaqişələrin sülh yollu ilə həlli prinsipi” tələb edir ki, hər bir dövlət başqa dövlətlərlə beynəlxalq münaqişələrini sülh vasitələri ilə həll etsin ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət təhlükəyə uğramasın (9).

Bu gün, dövlətimiz hər bir etnosun mədəni inkişafını xüsusi diqqət mərkəzində saxlamaqla ölkəmizin güclü multikultural dövlət olduğunu və Azərbaycan modelinin dünyaya örnək ola biləcəyini iddialı şəkildə önə çıxarır.

## Ədəbiyyat:


1. Экономическте и социальные последствия гонки вооружений и военных расходов. Обновленный доклад Генерального секретаря ООН. Нью- Йорк,1978. S.77
2. Тишков В. А. Социальное и национальное в историко-антропологичиской перспективе // Вопросы философии. 1990.№ 12. s.18

3. Хантингтон С. Столкновение цивилизаций и преобразование мирового порядка. // Новая постиндустриальная волна на Западе. – М.: Academia, 1999.- s.53
4. Хантингтон С. Столкновение цивилизаций и преобразование мирового порядка. // Новая постиндустриальная волна на Западе. – М.: Academia, 1999.- s.535
5. Məmmədov İ., Əsədov S.,Ermənistan azərbaycanlıları və onların acı taleyi. (Qısa tarixi oçerk). Bakı, 1992 səh. 48, 112
6. http://tumib.az/?p=256 // Fərhadov Ə. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsinin elmi, tarixi qaynaqları
7. http://www.mfa.gov.az/content/114 Azərbaycan respublikasında mədəni müxtəliflik
8. http://www.president.az/articles/19563 İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib
9. F. Məmmədov. İdarəetmə mədəniyyəti. Xarici ölkələrin təcrübəsi-Bakı, “Apostrof” Çap evi, 2013.s.-313

**Турадж Мамедова**

**Роль мультикультурализма в предотвращении конфликтов**

**Резюме**

Сохранение мира и стабильности, обеспечивающее будущее человечества, являются основными состовляющими международных отношений. Конфликты и этнические столкновения, которые произошли в после Второй мировой войны и после распада СССР, требуют широкого научного и аналитического анализа. Регулирование этих процессов на основе международно-правовых норм и принципов всегда имели и имеют свою актуальность. С этой точки зрения развитие мультикультурализма и меры, принимаемые в этом направлении, можно рассматривать как важное условие формирования мультикультурализма как модели и трансформации во внешнеполитический фактор в каждой стране. Наше государство, основанное на демократических и правовых принципах, создало свою мультикультурную модель с первых лет независимости и превратило ее в линию государственной политики. Дальнейшее совершенствование этой модели также является гарантией высокого благосостояния и безопасности нашего народа, с богатым этническими и культурным наследием.

**Ключевые слова:** Азербайджан, конфликт, мултикультурализм, демократия

**Turadj Mammadova**

**The role of multiculturalism in conflict prevention**

**Summary**

Preservation of peace and stability, ensuring the future of mankind and important problems covering this area, constitute the main areas of international relations, as well as conflictology.The destructive conflicts and ethnic clashes that occurred in the post-World War II era and after the collapse of the USSR require extensive scientific and analytical analysis. That is true, regulation of these processes on the basis of international legal norms and principles always expresses its relevance, but at the same time the search for alternative views and measures is an important requirement of that time. In that case the development ofmulticulturalism and the measures taken in this direction can be considered as an important condition for the formation of multiculturalism as a model and transformation into the foreign policy factor in each country.Our state, based on democratic and legal principles, has created itsmulticultural model from the first years of independence and turned it into a line of state policy. Further improvementof this model is also a guarantee of the high welfare and safety of our people, richin ethnic and cultural aspects.

**Keywords:** Azerbaijan, conflict, multiculturalism, democracy.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.05.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 18.05.2018Məqalənin çapa qəbul olunma tarixi: 21.06. 2018**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfədoktoru, dosent Xaləddin Sofiyev**

**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**